

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 126 (21.278)

30 iyun 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İyunun 29-da birinci Avropa Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşq-çiləri, Azərbaycan idman ictimaiyyətinin nümayəndələri və oyunların təşkilində xid-mətləri olmuş xarici tərəfdaşlarla görüş keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

Sonra mükafatlandırma mərasimi olub.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 29 iyun tarixli Sərəncamı ilə I Avropa Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında böyük xidmətlərinə görə bir qrup idmançı təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının idmançısı da vardır.

**"Tərəqqi" medalı ilə**

Əliyev Tayfur Nəriman oğlu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 29 iyun tarixli Sərəncamı ilə Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə I Avropa Oyunlarında uğurla çıxış etmiş idmançıların məşqçiləri "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasından olan məşqçi də vardır.

Eyvazov Məmmədəli Əhməd oğlu

## Muxtar respublikada keçirilən "Muzey günləri" böyük ictimai əhəmiyyət daşıyır

*Muzeylər elə ünvanlardır ki, bura-ya üz tutanlar mənsub olduqları xalqın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri haqqında mütləq yeni məlumatlar əldə etmək imkanı qa-zanırlar. Bu amil nəzərə alınaraq muxtar respublikada keçirilən "Mu-zey günləri"ndə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, müx-təlif təşkilatların əməkdaşları mu-zeylərə gedir, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi, mə-dəniyyətimizi, milli dəyərlərimizi özündə əks etdirən eksponatlarla tanış olurlar.*

İyunun 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyində olmuşlar. Məlumat verilmişdir ki, son illər muxtar respublikada xalçaçılıq sənətinin inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmiş, mədəni irsimizin qorunması işinə diqqət artırılmışdır. Muxtar respublikada xalçaçılıq sənətinin yaşadılması istiqamətində görülən işlər bu sahə üzrə yeni elmi araşdırmaların aparılmasına stimul olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 1998-ci ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin edilmiş, 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulmuşdur. Hazırda muzeydə 3292 eksponat vardır.



Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsinin və ixtisaslaşdırılmış məhkəmələrin kollektivləri də Naxçıvan Dövlət Xalça Muzeyində olmuşlar.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, Rabitə və Yeni Texnologiyalar və Səhiyyə nazirliklərinin kollektivləri Heydər Əliyev Muzeyində, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin, Ədliyyə Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin və struktur qurumlarının kollektivləri Ədəbiyyat Muzeyində, Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivləri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyində, İqtisadiyyat və Sənaye, Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin kollektivləri Dövlət Bayrağı Muzeyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivləri "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirliklərinin kollektivləri isə C.Naxçıvanskinin ev-muzeyində olmuşlar.

Muxtar respublikanın rayonlarında fəaliyyət göstərən idarə, müəssisə, təşkilatların nümayəndələri də muzeyləri ziyarət etmişlər.

**"Şərq qapısı"**

## "Endokrinologiyanın müasir problemləri" mövzusunda elmi-praktik konfrans



*Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında Bakı şəhərindəki Endokrinoloji Mərkəzin və Naxçıvan Muxtar Respublikası Endokrinoloji Dispanserinin birgə təşkilatçılığı ilə "Endokrinologiyanın müasir problemləri" mövzusunda elmi-praktik konfrans keçirilib.*

Konfransda Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Sona Məmmədova səhiyyə sisteminin inkişafından, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsindən, infrastrukturun yenidən qurulmasına dövlət qayğısından danışaraq bildirib ki, hazırda belə müəssisələrin bilikli tibbi kadrlarla təmin olunması prioritet məsələ kimi diqqət mərkəzində saxlanılır. Həkimlərin peşə bacarığının yüksəldilməsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Müasir müalicə metodlarının öyrənilməsi və tətbiqi üçün tanınmış xəstəxana və klinikaların iş təcrübəsindən istifadə olunur. Bu gün inkişaf edən dünya səhiyyə sisteminin müasir nailiyyətlərinin öyrənilməsində, ondan faydalanmaqda elmi-praktik konfransların mühüm əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq bu işə daimi diqqət yetirilir. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Bakı Şəhər Endokrinoloji Mərkəzin və Naxçıvan Muxtar Respublikası Endokrinoloji Dispanserin birgə "Endokrinologiyanın müasir problemləri" mövzusunda elmi-praktik konfrans keçirməsi artıq ənənə halını alıb. Hər il Bakıdan gələn yüksəkixtisaslı həkimlər Endokrinoloji Dispanserin həkimləri ilə birgə bölgələrdə konsultativ söhbətlər, səhiyyə maarifi işi aparır, rayonlarda bu qəbildən olan xəstələrə baxış keçirir, onlara tibbi məsləhətlər verirlər.

Bakı şəhərindəki Endokrinoloji Mərkəzin direktoru Rauf Cabbarov "II tip şəkərli diabetdə erkən insulin müalicəsinə göstərişlər", "Diabetik polineyropatiyalar, müalicə prinsipləri", Bakı şəhərindəki Mərkəzi Dənizçilər Xəstəxanası Endokrinoloji şöbəsinin müdiri Nazim Rüstəmov "Şəkərli diabet II tip, pilləli müalicə prinsipləri" mövzularında məruzələrlə çıxış ediblər.

Bildirilib ki, şəkərli diabet endokrin sistemin ən geniş yayılmış xəstəliklərindən biridir. Hazırda dünyada 250 milyondan çox şəkərli diabet xəstəsi var. Hər il qeydə alınan ölüm hallarının 5 faizi şəkərli diabet nəticəsində baş verir. Odur ki, bu xəstəliklə mübarizə hazırda dünya səhiyyəsinin ən aktual məsələlərindən biridir.

Son illər ölkəmizdə onların müalicəsi, şəkərli diabetin profilaktikası istiqamətində mühüm tədbirlər görülüb. "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Qanun, 2006-2010-cu və 2011-2015-ci illəri əhatə edən "Şəkərli diabet üzrə Dövlət Proqramı" qəbul edilib. Hazırda bu proqram uğurla icra olunur.

Tədbirdə məlumat verilib ki, muxtar respublikamızda da görülmüş tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təmin olunması xeyli yaxşılaşıb. 2007-ci ildə verilmiş qlükometr aparatları və test lövhələrindən ibarət özünənəzarət vasitələri yeniləri ilə əvəz olunub. Bu aparatlar Naxçıvan Muxtar Respublikası Endokrinoloji Dispanserində qeydiyyatda duran hər bir xəstənin özünə ödənişsiz olaraq təqdim edilir. Eyni zamanda aparatla qanda şəkərin miqdarının təyin edilməsi qaydaları izah olunur.

Müalicə-diaqnostika işinin yaxşılaşdırılması şəkərli diabet xəstələrinin aşkarlanması üçün də şərait yaradıb. 2011-ci ildən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin laboratoriyasında şəkərli diabet xəstələri üçün qlükozalaşmış hemoqlobinin təyininin tətbiq olunması həmin xəstələrin qanında şəkərin miqdarına daha dəqiq nəzarət etməklə diabet əleyhinə dərman preparatlarının dozasının müəyyən edilməsini daha da asanlaşdırıb. Endokrinoloji Dispanser tərəfindən şəkərli diabetin diaqnostikası və müalicəsi üzrə klinik protokolların tətbiqi, xəstəliyin profilaktikasına dair maarifləndirici söhbətlərin aparılması, diabetin fəsadlarının profilaktikası məqsədilə tibb müəssisələrində təlim məktəbləri şəbəkəsinin gücləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə artıq dörd ildən çoxdur ki, diabet məktəblərinin təlim, məşğələ və treninqləri təşkil olunur.

Muxtar respublika endokrinoloqları, terapevtləri, nevroloqları, cərrah və ginekoloqlarının iştirak etdiyi konfransda müzakirələr aparılıb, suallar cavablandırılıb, tədbir iştirakçılarına kitabça və bülletenlər paylanılıb.

Bakıdan gələn yüksəkixtisaslı həkimlər Endokrinoloji Dispanserin endokrinoloqları ilə birgə bölgələrdə konsultativ söhbətlər, səhiyyə maarifi işi aparacaq, rayonlarda bu qəbildən olan xəstələrə baxış keçirəcək, onlara tibbi məsləhətlər verəcəklər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları bölgədə həyata keçirilən tikinti-quruculuq tədbirlərində fəallıq göstərirlər.*

## Gilançayda kompleks quruculuq tədbirləri həyata keçirilir





Hər il rayonun müxtəlif yaşayış məntəqələrində bir neçə yeni obyekt inşa olunaraq təhvil verilir. Cari ildə də idarənin inşaatçıları bir sıra quruculuq tədbirləri ilə məşğuldurlar. Belə tədbirlərdən rayonun Gilançay kəndinə də pay düşüb. Hazırda adıçəkilən idarənin inşaatçıları kənddə tam orta məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binaların tikintisini aparırlar. Kənd tam orta məktəbinin binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaq. 96 şagird yerlik məktəb binasında müəllim və şagirdlərin ixtiyarına laboratoriyalar, sinif otaqları, idman zalı, şahmat və kompüter otaqları, elektron lövhəli siniflər veriləcək. Tədrisin səviyyəsini yüksəltmək üçün məktəb binası müasir tədris avadanlıqları ilə təmin ediləcək.

Adıçəkilən təşkilatın bir qrup inşaatçısı isə kənd mərkəzinin tikintisində çalışır. Gilançay sakinlərinə yeni qayğının ifadəsi olan bu obyekt 2 mərtəbədən ibarət olacaq. Mərkəzdə kənddə fəaliyyət göstərən qurumlar üçün hərtərəfli şərait yaradılacaq.

Bərbərxananın, gözəllik salonunun, ərzaq və təsərrüfat malları mağazalarının, həmçinin ət satışı dükanının fəaliyyət göstərəcəyi xidmət mərkəzinin tikilməsi də kənd sakinlərinə dövlət qayğısının ifadəsidir.

Hər üç obyektdə çalışanlara hərtərəfli şərait yaradılıb, sürətli iş ahəngi təmin olunub. İnşaatçılar yaradılan şəraitdən səmərəli istifadə edir, keyfiyyət amilini diqqət mərkəzində saxlayır, öhdələrinə götürdükləri kompleks quruculuq işlərini vaxtında başa çatdırmaq üçün səylərini əsirgəmirlər.

**Xəbərlər şöbəsi**

# Böyük qayğıdan doğan inkişaf




### *Dünən yaşanmışlar, bu gün yaşananlar*

Bu yay günlərində zirvəsindən qarı qurtarmayan dağlarının yamaclarına və ətəklərinə elə bil xalı səriblər Şahbuzun. Minbir dərdin dərmanı olan gül-çiçəkləri bu xalının naxışlarıdır. "Ulu Tanrı bu qədim yurd yerindən öz səxavətini əsirgəməyib" qənaətində olanlar düz düşünürlər. Bilmirsən, Şahbuzun hansı gözəlliyinin vəsfindən başlayasan. Əslində buna heç jurnalist qələminin gücü də çatmaz. Şair istəyir şeir qoşa, rəssam lazımdır tabloya köçürə, bəstəkar yolunu gözləyir ki, nəğmə bəstələyə belə gözəlliklərə.

Uzunömürlülər diyarı, yaradıcı sənət adamlarının ilham çeşməsi Şahbuz dünən belə deyildi. Bir qədər geriyə qayıdaq, yaxın tarixi vərəqləyək. Bir vaxtlar ən tipik və ən ucqar əyalət kəndindən seçilməyən bu yurd yeri gözdənuzaq, könüldəniraq bir ünvan olub. Bunu orta və yaşlı nəsil yaxşı xatırlayır. Elə götürək yollarını. Payız-qış aylarında palçıqlı, yay aylarında tozlu-torpaqlı kələkötür yolları rayonun kəndlərində insan yaşamadığı qənaətini yaradırdı. Həyatın digər sahələri də eləcə.

Muxtar respublikada ilk quruculuq tədbirlərinə start veriləndə bu bölgə digər yaşayış məntəqələri ilə müqayisədə, sözün həqiqi mənasında, miskin bir görkəmdə idi. Rayonun füsunkar mənzərələri, təbiət abidələri də bu görkəmi ört-basdır edə bilmirdi. Yeraltı və yerüstü sərvətləri istifadəsiz qalmışdı. Bəs bu gün?

Şahbuz rayonu da inkişaf və tərəqqi baxımından nümunə gücündədir. Statistik rəqəmlərə və elə təkcə ötən ilin uğurlarına nəzər salsaq, gözlərimiz qarşısında böyük bir quruculuq mənzərəsinin canlandığını görərik. Bu bölgə son 20 ildə yüz ilə bərabər yol qət edib. 836,6 kvadratkilometr ərazini əhatə edən, 25 minə yaxın əhalisi olan rayonda 1 şəhər, 1 qəsəbə, 22 kənd vardır. Bölgədə hansı ünvana üz tutsaq, görərik ki, quruculuq tədbirləri rayonun füsunkar təbii gözəlliklərinə əlavə naxışlar vurub və bu proses bu gün də davam etdirilir.

### *Statistik rəqəmlər nə deyir və ya rayonun quruculuq xəritəsi*

24 yaşayış məntəqəsi olan rayonda 20 məktəb, 20 kənd mərkəzi, 17 xidmət mərkəzi, mərkəzi xəstəxana, 5 həkim ambulatoriyası, 17 feldşer-mama məntəqəsi, rayon mərkəzində onlarla idarə, müəssisə, təşkilat öz fəaliyyətini müasir iş şəraiti yaradılmış binalarda davam etdirir.

Dəniz səviyyəsindən xeyli yüksəkdə yerləşən belə yaşayış məntəqələrinə gedən yolları bu gün təsvir etsək, bəlkə də, çoxları inanmaz. Ancaq o yolları görənlər bu gün də yaşayırlar. Sözümüzün canı ondadır ki, kəndlərdə həyata keçirilən kompleks quruculuq tədbirləri həmin ünvanlara çox böyük həcmdə tikinti materialları aparılmasını tələb edirdi. Yuxarıda dediyimiz kimi, həmin yollar elə bir vəziyyətdə idi ki, quruculuq işlərinin vaxtında aparılmasına maneələr yaradırdı. Elə o vaxt yolların təmiri, yenidən qurulması üstün istiqamət kimi qəbul edildi və başlıca çətinlik aradan qaldırıldı. Həm yollar yenidən quruldu, həm də bu yolların getdiyi yaşayış məntəqələri abad ünvanlara çevrildi. Şada, Biçənək, Yuxarı Qışlaq, Keçili, Külüs və başqa yaşayış məntəqələri müasirləşməyə üz tutan rayonun ilk nümunəvi kəndləri oldular. Tədricən bu quruculuq işləri digər yaşayış məntəqələrini də əhatə etdi. Təkcə 2014-cü ilin və bu ilin ötən dövrünün uğurları rayonun sürətli inkişafı barədə söz deməyə kifayət qədər material verir.

Ötən il rayonda rabitə evinin əsaslı təmiri, şəhər mərkəzinin tikintisi başa çatdırılıb. Rayon mərkəzində iki yaşayış binası təmir edilib. Ahıllar evinin əsaslı təmiri, Şahbuz şəhər 2 nömrəli tam orta məktəb binasının tikintisi, Sələsüz və Nursu kəndlərində tam orta məktəb binalarının yenidən qurulması da ötən ilin quruculuq tədbirlərindəndir.

Ən ucqar dağ kəndi olan Nursu kəndində həm də xidmət mərkəzi və həkim ambulatoriyası binaları tikilib, Xalq şairi Məmməd Arazın ev-muzeyi istifadəyə verilib. Kənd sakinləri bu ucqar dağ kəndinə göstərilən qayğını mahiyyət etibarı ilə insan amilinə göstərilən qayğı hesab edirlər. Kəndin yetirməsi, filologiya üzrə fəlsəfə doktoru Arif Ağalarov deyir ki, tikinti-quruculuq tədbirləri bu gün muxtar respublikanın ayrılmaz həyat ritminə çevrilib. Ona görə də belə tədbirlər bizə adi görünür. Xalq şairimiz Məmməd Arazın ev-muzeyinin açılışına paytaxt Bakı şəhərindən gələn qonaqlar Nursu kimi ucqar bir yaşayış məntəqəsində qurulub-yaradılanları görəndə gözlərinə inanmadılar. Etiraf etdilər ki, burada şəhər infrastrukturu yaradılıb. Genişmiqyaslı quruculuq işlərini həyata keçirmək heç də asan məsələ deyil. Xüsusən də ucqar ünvanlarda. Bütün bunların son 20 ilin bəhrələri olduğunu deyən Arif müəllim şahbuzluları dövlətçiliyimizə, müstəqilliyimizə sadiq insanlar kimi dəyərləndirərək onların adından minnətdarlığını bildirdi.

Ötən il Şahbuz şəhər-Nursu avtomobil yoluna qara örtük salınıb, suötürücü kanallar tikilib. Biçənək və Badamlı kəndlərinin hər birində 1 körpü tikilib. Şahbuz rayonunun yolları müasir standartlar səviyyəsindədir: hər il cari təmir işlərinin aparılması yolların sıradan çıxmasının qarşısını alır. Bu isə sərnişinlərin və avtomobillərin təhlükəsizliyində mühüm əhəmiyyət kəsb edir.

Bir vaxtlar muxtar respublikanın digər bölgələri kimi, bu rayon da enerji təminatından xeyli əziyyət çəkib. Bu gün şahbuzlular fasiləsiz elektrik enerjisi ilə təmin olunmalarını son 20 ilin bəhrələrindən biri hesab edirlər. Məlumat üçün bildirək ki, ötən il Şahbuz şəhərində, Biçənək və Nursu kəndlərində, ümumilikdə, 4 olmaqla müxtəlif gücə malik yeni transformator yarımstansiyaları qoyulub, 17 ədəd transformatorda cari təmir işləri aparılıb, 7 kilometr uzunluqda 10 və 0,4 kilovoltluq yeni elektrik xətləri çəkilib. Bu sahəyə qayğı cari ildə də davam etdirilir.

Artıq şahbuzluların hər birinin ailəsində bu gün mavi qaz şöləlvalənir. Ötən il və bu ilin ilk 5 ayı ərzində yeni qaz xətlərinin çəkilməsi, istismar müddəti başa çatmış qazpaylayıcı şkafların dəyişdirilməsi, ehtiyac duyulan qaz sayğaclarının yenisi ilə əvəz olunması diqqət mərkəzində saxlanılır.

Quruculuq tədbirləri bu il də davam etdirilir. Gömür kəndində kompleks quruculuq tədbirləri çərçivəsində kənd və xidmət mərkəzləri inşa olunub, tam orta məktəb binası yenidən qurulub.

Bütün bunlar rayon sakinləri tərəfindən yüksək qiymətləndirilir. Rayon ziyalısı Sahib Hüseynov deyir ki, dünən çox uzaqda deyil. O günləri unutmaq olmaz. Bir anlığa 20 il əvvəli gözlərim önünə gətirəndə bu günümüzə inanmağım gəlmir. Saatlarla işıqsız qalan bir region bu gün elektrik enerjisi ixrac edir. Bu, sosial-iqtisadi inkişafın ən bariz göstəricisidir və Şahbuz rayonu da bu inkişafdan yetərincə bəhrələnib. İyun ayının 25-də daha bir obyekt – Şahbuz Şəhər Uşaq bağçasının yeni binası istifadəyə verildi. Dörd mərtəbədən ibarət olan binada 242 uşağın təlim-tərbiyə almasına imkan yaradılıb. Uşaq bağçasında yaradılan şərait yüksək səviyyədədir. Bu da işləyən və xüsusi qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısının ifadəsidir.

Hazırda Şahbuz şəhərinin girişində Bayraq Meydanı, Daylaqlı kəndində məktəb və kənd mərkəzi üçün yeni binalar inşa olunur. 120 şagird yerlik məktəb binası 3 mərtəbədən ibarət olacaq. Məktəb binasının yaxınlığında isə kənd mərkəzi üçün bina inşa olunur. Burada kənddə fəaliyyət göstərən qurumlara hərtərəfli iş şəraiti yaradılacaq. Yaxın günlərdə kənddə xidmət mərkəzinin tikintisinə başlanılacaq.

### *Torpaq şahbuzluların daimi iş yeridir*

Meliorasiya və irriqasiya tədbirləri bu bölgədə də həyata keçirilən quruculuq tədbirlərinin tərkib hissəsinə çevrilib. Son 20 ildə torpaq mülkiyyətçilərinin suvarma suyuna olan tələbatının ödənilməsi istiqamətində görülən işlər bol məhsul istehsalında başlıca səbəblərdən biri olub. Ötən il rayonda olan nasos stansiyalarında təmir işlərinin aparılmasına ciddi önəm verilib. Daylaqlı, Şahbuzkənd və Əcəmi nasos stansiyalarında ehtiyac duyulan suvarma boru xətləri təmir olunub, Şahbuz şəhərində və kəndlərdə 1,2 kilometr yeni suvarma boru xətti çəkilib.

Son illər həyata keçirilən meliorasiya və irriqasiya tədbirləri bölgənin məhsuldar torpaq sahələrini cana gətirib. Bu gün bir qarış torpağı əkilməmiş qoymayan kənd adamları belə tədbirlərdən xeyli razılıq edir, məhsul bolluğu yaradılmasına çalışırlar.

Yeri gəlmişkən qeyd edək ki, cari ildə rayonda 1543 hektar sahədə yazlıq əkin aparılıb. Bunun 430 hektarını kartof, 281 hektarını tərəvəz, 204 hektarını yazlıq taxıl (cari ilin məhsulu üçün ötən ilin payızında 1331 hektarda taxıl əkilib), 242 hektarını paxlalılar, 187 hektarını birillik, 175 hektarını çoxillik ot, 10 hektarını bostan, 8 hektarını günəbaxan, 6 hektarını qarğıdalı əkinləri təşkil edir. Artıq bəzi sahələrdə məhsul yığımına başlanılıb.

***Göründüyü kimi, 2014-cü ildə və cari ilin ötən dövründə diqqətçəkən uğurlara imza atılıb. Bu yazımızda 20 illik intibah dövrünün təkcə bir ilində görülən işləri, qazanılan uğurları sadalamağa çalışdıq. Ancaq həssas oxucu elə bir ildə həyata keçirilən tədbirlərin həcminin necə böyük olduğunu təsdiq edər. Şahbuz daha böyük uğurlar, nailiyyətlər gözləyir.***

Muxtar MƏMMƏDOV

*Naxçıvan məhsulları xarici bazarda*

# Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinin ixrac potensialı artıb

***Müasir texnoloji avadanlıqlarla təmin olunmuş Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətində keyfiyyətli mineral su istehsalı üçün əlverişli şərait yaradılıb. Müəssisənin fəaliyyətinin genişləndirilməsi, istehsal həcminin artırılması və yeni istehsal sahəsinin – qazsız su istehsalı sahəsinin yaradılması üçün Sahibkarlığa Kömək Fondundan 2011-ci ilin fevral ayında 700 min manat, aprel ayında isə 350 min manat güzəştli kredit ayrılıb. Bundan sonra bir sıra tədbirlər həyata keçirilib, müəssisədəki 625 kvadratmetr sahəsi olan binada əsaslı təmir və yenidənqurma işləri aparılıb, Türkiyə Respublikasının "Ersey Makina" şirkətindən saatda 11 min ədəd 0,5, 9000 ədəd 1, 8000 ədəd 1,5 litrlik butulkalarda, 5 və 19 litrlik taralarda qazsız su istehsal edən müasir texnoloji avadanlıqlar alınıb gətirilərək quraşdırılıb.***



Müəssisədə müasir texnoloji avadanlıqlarla təmin olunmuş xüsusi bakterioloji laboratoriya istifadəyə verilib. Ümumilikdə, yeni istehsal sahəsinin yaradılmasına və müasir texnoloji avadanlıqların alınmasına 1 milyon 350 min manat vəsait sərf olunub. Bunun da 300 min manatı daxili imkanlar hesabına ödənilib. Bu istiqamətdə işlər uğurla davam etdirilib, 2014-cü ilin mart ayında "Sirab premium" adında 4 çeşiddə qazlı və qazsız mineral su istehsalına başlanılıb. Qeyd edək ki, "Sirab premium" adı ilə satışa çıxarılan mineral su yüksək keyfiyyəti və qablaşdırma üsulu ilə seçilir.

Müəssisədə məhsulun keyfiyyətinə laborator nəzarət təmin olunub. Burada suyun minerallıq dərəcəsi, qələviliyi, ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bir sözlə, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyəti yenidən bərpa olunan müəssisədə istehsal prosesi avtomatlaşdırılaraq standartlara uyğun, ekoloji cəhətdən təmiz, yüksəkkeyfiyyətli məhsul istehsalına nail olunub. Bütün bunların müqabilində "Sirab" mineral suyu 2005-ci ilin may ayında İsveçrənin Cenevrə şəhərində keçirilən beynəlxalq forumun "İş təcrübəsində yüksək keyfiyyətlərə görə" adlı qızıl medalına, 2009-cu ilin oktyabr ayında Ukrayna Respublikasında keçirilən XII beynəlxalq sərgidə qızıl medala, 2010-cu ilin fevral ayında Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçirilən XVII beynəlxalq sərgidə gümüş medala, 2011-ci ildə yenə Moskva şəhərində və Qazaxıstan Respublikasının Almatı şəhərində keçirilən beynəlxalq sərgilərdə qızıl medallara layiq görülüb. Həmçinin bu əvəzsiz təbii sərvətimizin Avropa ölkələrində və digər xarici ölkələrdə satışını təmin etmək üçün möhkəm baza yaradılıb. Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətində bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sistemi və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO-22000 və İSO-9001 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılıb.

Məhsulun keyfiyyətinin yüksək olması müəssisəni alıcı problemi ilə üzləşdirmir. Mövcud imkanlardan maksimum səmərəli istifadə etməyə səy göstərən kollektiv cari ilin ilk 5 ayında 0,5, 1, 1,5 litrlik plastmas butulkalarda qazlı və qazsız, 0,33, 0,5 litrlik şüşə butulkalarda qazlı, 5 və 19 litrlik plastmas taralarda qazsız olmaqla, ümumilikdə, 3 milyon 311 min 250 ədəd butulka və taralarda mineral su istehsal edib. Bunun 872 min 115 ədədi sifarişə uyğun olaraq muxtar respublika ərazisində, 2 milyon 34 min 936 ədədi Bakı şəhərində və respublikamızın müxtəlif bölgələrində fəaliyyət göstərən ayrı-ayrı ticarət obyektlərinə yola salınıb, 404 min 199 ədədi isə Rusiya Federasiyasına, Ukrayna, Belarus, Türkmənistan və Litva respublikalarına göndərilib. Beləliklə, istehsal olunan ümumi məhsulun, təqribən, 26 faizi muxtar respublikada, 61 faizi Bakı şəhərində və respublikamızın müxtəlif bölgələrində, 13 faizi isə xarici ölkələrdə satışa çıxarılıb. Gələcəkdə digər xarici ölkələrdə də "Sirab" suyunun satışa çıxarılması nəzərdə tutulur. "Sirab" mineral suyunun ixrac olunması və bazarda özünəməxsus yer tutması bu əvəzsiz təbii sərvətimizin yüksək keyfiyyəti və müalicəvi əhəmiyyəti ilə bağlı olub, Babək "Sirab" ASC-nin bazar iqtisadiyyatının tələblərinə uyğun yüksəkkeyfiyyətli məhsul istehsal etməklə rəqabətqabiliyyətli müəssisəyə çevrildiyinin göstəricisidir.

Kərəm HƏSƏNOV

# Kənd təsərrüfatı ili



*Dövlət proqramı necə icra olunur?*

## Ordubadda meyvə-tərəvəzçilik sahəsində yüksək nailiyyətlər əldə edilib

***Tarixi mənbələrdə Ordubad XVIII əsrdə Naxçıvan xanlığının əsas meyvəçilik mərkəzi kimi qeyd olunur. Həmin dövrdə, demək olar ki, hər həyətdə meyvə bağı olub. Bu bağlarda yetişən şaftalı, gilas, ərik, albalı, alça, gilənar, gavalı, cəviz və digər meyvələr bütün Qafqazda tanınıb. Naxçıvan xanlığının Dəstə, Biləv mahallarında çox keyfiyyətli cəviz yetişdirilib. Yüksək keyfiyyətinə görə əhali bu məhsulu kilo ilə deyil, ədədlə hesablayıb. Əldə edilən məhsuldan vergi də ədədlə alınıb. Ümumiyyətlə, XVIII əsrin son onilliyində Ordubad rayonunda 1386 bağ olub, onlardan 193-ü böyük sahələri əhatə edib.***

Ordubadda yetişdirilən meyvələrin müxtəlif sortları vardır. Məsələn, şaftalının ağnazlısı, narıncısı, yarma zəfəranı, ağ alanayısı, hulusu, payız salamısı və güştüsü öz dadı və tamı ilə tanınır. Ağ təbərzə, əbutalibi kimi ərik sortları yüz illərdir ki, Ordubadın meyvəçilik sahəsində simvoluna çevrilib. Meyvələr zahiri görünüşü cəhətdən nə qədər gözəldirsə, bir o qədər də şirin, lətif və ətirlidir. 1861-ci ildə Ordubad şaftalısı ABŞ-da təşkil edilmiş meyvəçilik sərgisində yüksək qiymətə layiq görülüb. Bu meyvə həmin qiyməti həm də Almaniyada və İtaliyada alıb, eyni zamanda Moskvada keçirilən ümumittifaq kənd təsərrüfatı sərgilərində yüksək dəyərləndirilib. Əbutalibi əriyi hələ 1898-ci ildə Kaliforniyada təşkil olunmuş ümumdünya meyvəçilik sərgisində birinci yerə layiq görülüb. Ümumilikdə isə Ordubad meyvələri dəfələrlə beynəlxalq sərgilərə çıxarılıb, 9 medal qazanılıb. Ordubad öz quru meyvələri (qaysava, qaysı, alana, basdıq və sair) ilə də tanınıb. Burada meyvələri qurudaraq qışa saxlamaq və çay süfrələrində onlardan istifadə etmək ənənəsi yerli məişətdə çox geniş yayılıb.Vaxtilə bu bölgədə 40 növdə üzüm yetişdirilib. XX əsrin əvvəllərində Azərbaycanda yetişdirilən 40-dan artıq ərik növünün çoxu Ordubadın payına düşüb. Burada həm də geniş əraziləri əhatə edən tut bağları olub. Bu ağacın meyvəsindən çərəz kimi istifadə olunur, doşab bişirilir, yarpaqlarından baramaçılıqda istifadə edilirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2012-ci il tarixli Sərəncamla təsdiq etdiyi “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Ordubad rayonunda da meyvə-tərəvəzçilik sahəsində yeni mərhələnin əsasını qoyub. Bu proqram hazırkı dövrdə əhalinin artan tələbatına uyğun olaraq, meyvəçiliyin və tərəvəzçiliyin davamlı inkişafı üçün qəbul edilmiş mühüm dövlət sənədidir.

Bəs mühüm dövlət proqramının icrası meyvəçilikdə şöhrət qazanmış Ordubad rayonunda necə həyata keçirilir? Ötən dövr ərzində bu proqramın icrası istiqamətində Ordubad rayonunda müvafiq dövlət qurumları tərəfindən konkret olaraq hansı işlər görülüb? Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Səyyad Cəfərovla söhbətimiz sözügedən dövlət proqramının yekun ilində rayonda əldə edilən nəticələr barədə oldu. O bildirdi ki, dövlət proqramına uyğun olaraq Ordubad rayonunda tədbirlər planı hazırlanıb, qarşıya qoyulan vəzifələrin icrası istiqamətində bir çox əməli tədbirlər



görülüb. Tədbirlər planına əsasən, yeni bağların salınması üçün rayonun müxtəlif ərazilərinin əkin atlası hazırlanıb. Həmin atlasa uyğun olaraq, rayonun Dəstə kəndi ərazisində bölgənin torpaq-iqlim şəraitinə asan uyğunlaşan meyvə tingçilik təsərrüfatı yaradılıb, Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyinin Ordubad rayonunun Aşağı Əndəmic kəndində yerləşən dayaq məntəqəsinin meyvə bağında əlavə tinglik salınıb. Sevindirici haldır ki, rayon ictimaiyyəti yeni meyvə bağlarının salınmasında fəal iştirak edir. Belə ki, son illər rayonda iməciliklər yolu ilə yerli iqlim və relyefə uyğun tezyetişən meyvə sortlarından ibarət 108,5 hektar meyvə bağı salınıb və 140 mindən artıq ting əkilib. Dövlətin maliyyə dəstəyindən yararlanan rayon sakinləri yeni meyvə bağları salıb, istixanalar yaradıblar. Təkcə bir fakta diqqəti çəkmək yerinə düşər ki, 2004-cü ildən 2015-ci ilədək rayonda 137,9 hektar sahədə meyvə bağı salınıb. Yeni salınan meyvə bağlarının 13,4 hektarı keçən ilin payına düşüb. Sabirkənddə Xəlil Fərəcov, Nəsirvazda Nicat Rzayev, Xursda Çimnaz Bayramova, Unusda Hüseyn Mirzəyev və başqaları unudulmaqda olan meyvə sortları tinglərinin əkilməsinə üstünlük veriblər. Bir məsələni də qeyd edək ki, yeni meyvə bağları salınması üçün 2012-2014-cü illərdə 7 nəfərə, ümumilikdə, 98 min manat güzəştli kredit verilib. Həyata keçirilən tədbirlər bəhrəsiz qalmayıb. Belə ki, ötən il meyvə bağlarından 1583 ton məhsul tədarük olunub. Rayonda yeni meyvə bağlarının salınmasında bağban və aqronomların təcrübəsindən də geniş istifadə olunur. Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyinin Ordubad rayon dayaq məntəqəsinin müdiri, aqronom Qüdrət Nəsirovun bu sahədə zəngin təcrübəsi və biliyi var. Onunla dayaq məntəqəsinin Aşağı Əndəmic kəndində yerləşən 3 hektarlıq meyvə bağında görüşdük. Bildirdi ki, burada 134 növ meyvə var. Bağda alma, armud, ərik, gilənar, gilas, gavalı, şaftalı, badam, qoz, fındıq və sair yerli relyefə və iqlimə uyğun meyvələr yetişdirilir. Burada bitki fondu da yaradılıb.

Dövlət proqramına uyğun olaraq, rayonda tərəvəzçiliyin inkişafına da xüsusi diqqət yetirilir. 2014-cü ildə rayonda 672 hektar sahədə tərəvəz bitkiləri əkilib. Hektarın orta məhsuldarlığı 67 sentnerə çatdırılıb. Sahələrdən 4503 ton məhsul tədarük edilib. Bu da əvvəlki ildən 40,8 ton çoxdur. Dövlətimiz tərəfindən tərəvəzçiliklə məşğul olanlara müxtəlif yardımlar və kreditlər verilməsi bu sahəyə marağı daha da artırmaqla adıçəkilən dövlət proqramının uğurlu icrasında başlıca amil olub.

*Ümumiyyətlə, Ordubad rayonunda həyata keçirilən tədbirlər belə deməyə əsas verir ki, dövlət proqramının uğurlu icrası bölgədə meyvə-tərəvəzçilik sahəsində böyük nailiyyətlər əldə edilməsinə imkan yaradıb, daxili bazarın yerli məhsullarla təminatına, muxtar respublikanın ərzaq təhlükəsizliyinə, əhalinin məşğulluğuna və sosial rifahına və digər sahələrə müsbət təsirini göstərib.*

✍ **Səbuhi HÜSEYNOV**

## Məhsulunuz bol, işiniz avand olsun

***İlin isti günlərini yaşayırıq. Qədim diyarımız Naxçıvan, onun məğrur və torpaq təəssüblü insanları min illərdir ki, bu istilərə tab gətirə bilirlər. Qocalardan eşitdiyim fikirdir: doğma yurdun her şeyi gözəldir; çılpaq qayaları da, dağlarının zirvəsində yaya kimi əriməyən qarı da. Yamaclarındakı gül-çiçəyi ilə çaylarındakı qumu-çınqılı da. Və eləcə havası da; qışda soyuğu, yayda nəfəs kəsən istisi.***

Bu düşüncələrlə muxtar respublikanın taxılçılıqda yüksək məhsuldarlıq əldə olunan Kəngərli, Şərur, Sədərək rayonlarına gedirəm. Belə havada taxıl zəmisində məhsul tədarük edən insanları gözlərim önünə gətirirəm.

Kəngərli rayonunun Böyükdüz kəndi ilk dayanacağımız olur. Burada “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə məxsus olan 5 kombayn işləyir. Tədarük edilən məhsulu daşımaq üçün yük maşınları, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Kəngərli Rayon Şöbəsinin yanğınsöndürən texnikası da buradadır. Taxılın vaxtında tədarük edilməsi, itkiyə yol verilməməsi, fövqəladə hal baş verərsə, onun vaxt itirmədən qarşısının alınması üçün görülən tədbirlər ilk baxışdan bəlli olur. Deməli, məhsul tədarükünə hazırlıq yüksək səviyyədə təşkil olunub ki, çəkilən zəhmət hədər getməsin. Bu isə o deməkdir ki, torpaq mülkiyyətçisi dövlət qayğısı əhatəsindədir.

Qıvraq qəsəbəsinin ərazisində Hüseyn Abbasova məxsus olan 2 hektar taxıl sahəsində də biçin gedirdi. Torpaq mülkiyyətçisi yaradılmış şəraitdən razılığını bildirdi. Yol yoldaşımız, “Yeni həyat” qəzetinin redaktoru Malik Qasımov söhbətə qarışdı. Dedi ki, son illər rayonda taxılçılıqda uğurlu nəticələr qazanılıb. Bu səbəbdən də taxılçılığa maraq ildən-ilə artır. Arpaçay Su Anbarının sol sahil kanalı ilə Kəngərliyə su gətirilir. Bu tədbirin həyata keçirilməsi təsəvvürə gətiriləsi qədər çətin olsa da, həmin çətinlikdən geri çəkinilməyib. Məqsəd isə aydındır. İlbəil rayondakı kənd təsərrüfatı texnikalarının yenilənməsi də diqqətdə saxlanılır. Sahibkarlığın inkişafına yaradılan şərait bu sahəyə üz tutanların sayının artmasında başlıca rol oynayır. Öyrəndik ki, Xok kənd sakini Xaləddin Zeynalov rayonda ən çox taxıl əkən torpaq mülkiyyətçilərindən biridir. O, 55 hektar sahədə taxıl əkib. Sənan Ələkbərov, Mübariz Əliyev, İsrail Məmmədov da rayonda təcrübəli taxılçılar kimi tanınırlar. Xaləddin Zeynalov dedi ki, 2015-ci il, sözün həqiqi mənasında, taxıl ilidir. Bol məhsul yaxşı qazanc, yaxşı qazanc isə yaxşı yaşamaq deməkdir.

Muxtar respublikanın ən çox taxıl əkilən bölgələrindən biri də Şərur rayonudur. Ötən ilin payızında və cari ilin yazında şərurlular 7315 hektarı buğda, 1872 hektarı arpa olmaqla, 9187 hektarda əkin keçiriblər. Mövsüm ərzində bütün aqrotexniki tədbirlərə əməl olunub. Minbir zəhmətlə hasilə gətirilən məhsulun yığımına başlanması rayonda aidiyyəti təşkilatların qayğılarını artırıb. Ancaq bu qayğıların, nəticə etibarı ilə, öz sabahımız üçün olduğu unudulmadığından hər şey qaydasındadır. Məhsul tədarükü öz axarı ilə davam etdirilir.

Budur, Danyeri kəndindəyik. Firudin Abdullayevin taxıl zəmisində.



Dörd hektar sahədə bol taxıl yetişdirməyə nail olan Firudin deyir ki, şum qaldırılmasından başlayaraq bu günə kimi keyfiyyətli toxumla təchiz edilib, digər məsələlər vaxtında öz həllini tapıb. O, bir neçə ildir, bu sahə ilə məşğul olur. Əvvəlki illərdə çətinliklərlə üzləşdiyini də gizlətmir. Səmimiyyətlə etiraf edir ki, zəhmətlə qayğı bir-birini tamamlayanda hər şeyə nail olmaq mümkündür. O, tədarük etdiyi məhsulun satış probleminin də aradan qaldırıldığını xüsusi vurğulayır.

Öyrənirik ki, bu kənddə 52 hektar sahədə taxıl əkilib. Bu gün sonuncu hektarların məhsulu tədarük edilir. Qarşıdan yeni mövsüm gəlir. Tezliklə zəmilərin saman və küləşi yığışdırılaraq şum qaldırılmasına başlanılmalıdır. Kənd adamları əmindirlər ki, bu işlərin görülməsində də heç bir çətinlik olmayacaq. Çünki rayonda kifayət qədər şum traktoru, kipvuran, taxılsəpən texnikalar var.

Yolumuz sərhəd bölgəsi Sədərəyədir. Havanın istisinin azalmaq bilmədiyi bu vaxt zəmilərdə məhsul tədarük olunmasının çətinliyini, yəqin ki, oxucu da artıq təsəvvürünə gətirir. Ancaq bir məsələ var ki, yetişmiş məhsulun yığılmasını bir an da yubatmaq olmaz. Odur ki, çətinliyə sinə gərən insanların əməyi ən yüksək tərifəlayiqdir. Budur, Sədərəkdə onlardan biri ilə görüşürük. Qafar Zeynalov mexanizatordur. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətindən lizinq yolu ilə kombayn alıb. Həmyerlilərinin taxılının tədarükündə fəallıq göstərən Qafar özü də təcrübəli taxılçıdır. 16 hektar sahədə taxıl əkib. Dedi ki, rayonda məhsuldarlıq yüksəkdir: 35 sentner. Qarşıdakı günlərdə bu rəqəmin bir qədər də yüksək olacağına əminliyini ifadə edən Qafar usta bildirdi ki, Nazim Qaybalıyevin 16, Nurəddin Əliyevin 9, Nizami Bəbirovun 12 hektarlıq taxıl zəmilərində məhsuldarlıq daha yaxşıdır.

... Saat $18^{00}$ radələrində Sədərəkdən Naxçıvana yola düşürük. Səsi əraziyə yayılan kombaynların dayanmadan elin sərvətini topladığını yolboyu müşahidə edirik. Günəşin yandırıcı istisi mexanizatorların əllərini işdən soyuda bilmir. Onlar yaxşı bilirlər ki, müqəddəs və strateji bir məhsulun toplanması ən savab və xeyirxah işdir. Bu işin çətinliyi də gözəldir.

*İşiniz avand olsun!*

✍ **M.MƏMMƏDOV**

### Naxçıvan Muxtar Respublikası üzrə 29 iyun 2015-ci il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | | | Biçilən taxıl sahəsi (hektar) | | | Məhsul istehsalı (ton) | | | Məhsuldarlıq (sentner) | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | Ondan | | Cəmi | Ondan | | Cəmi | Ondan | | Cəmi | Ondan | |
| | | | Buğda | Arpa | | Buğda | Arpa | | Buğda | Arpa | | Buğda | Arpa |
| 1. | Şərur | 9187 | 7315 | 1872 | 2505 | 2059 | 446 | 9249 | 7475 | 1774 | 36,9 | 36,3 | 39,8 |
| 2. | Babək | 10476 | 7869 | 2607 | 3533 | 2000 | 1533 | 9267 | 5297 | 3970 | 26,2 | 26,5 | 25,9 |
| 3. | Culfa | 4982 | 3957 | 1025 | 1774 | 988 | 786 | 5290 | 2960 | 2330 | 29,8 | 30,0 | 29,6 |
| 4. | Ordubad | 2150 | 1308 | 842 | 1452 | 785 | 667 | 4085 | 2215 | 1870 | 28,1 | 28,2 | 28,0 |
| 5. | Şahbuz | 1344 | 1022 | 322 | - | - | - | - | - | - | - | - | - |
| 6. | Kəngərli | 4735 | 3104 | 1631 | 2141 | 906 | 1235 | 4717 | 1867 | 2850 | 22,0 | 20,6 | 23,1 |
| 7. | Sədərək | 2132 | 1147 | 985 | 630 | - | 630 | 2185 | - | 2185 | 34,7 | - | 34,7 |
| 8. | Naxçıvan şəhəri | 1231 | 1024 | 207 | 78 | 17 | 61 | 213 | 48 | 165 | 27,3 | 28,2 | 27,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **36237** | **26746** | **9491** | **12113** | **6755** | **5358** | **35006** | **19862** | **15144** | **28,9** | **29,4** | **28,3** |

***Naxçıvan Dövlət Filarmoniyasında Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Şəmsəddin Qasımovun anadan olmasının 60 illiyi ilə bağlı tədbir keçirilib.***

## Bəstəkarın 60 illik yubileyi qeyd olunub



Tədbiri Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov açaraq Naxçıvan musiqi mədəniyyətinə dəyərli töhfələr vermiş Şəmsəddin Qasımovu təbrik edib və ona cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıb.

Bildirilib ki, Şəmsəddin Qasımov Naxçıvan şəhərindəki 1 nömrəli Uşaq musiqi məktəbini bitirdikdən sonra təhsilini Asəf Zeynallı adına Musiqi məktəbində davam etdirib, sonra isə Azərbaycan İncəsənət Universitetini bitirib. O, muxtar respublikanın bir sıra uşaq musiqi məktəblərində müəllim işləyib. Şəmsəddin Qasımov bəstəkarlıqla bərabər, bu gün də pedaqoji fəaliyyətini davam etdirir, Naxçıvan Dövlət Universitetində gənclərə musiqimizi tədris edir.

Qeyd olunub ki, Şəmsəddin Qasımov bəstəkarlığa tələbəlik illərində başlayıb, bu illərdə onlarla mahnı bəstələyib. Onun musiqi sahəsində xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, iki dəfə Prezident mükafatına, 2005-ci ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev, Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin rəhbər və dirijoru, Azərbaycan Respublikasının Xalq artisti Çingiz Axundov, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının məsul katibi, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Kamal Əhmədov, Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Azərbaycan Respublikasının Xalq artisti Rza Xudiyev, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm nazirinin müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimova, Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev və başqaları Şəmsəddin Qasımovu təbrik edərək ona yaradıcılıq uğurları arzulayıblar.

Çıxışlarda qeyd olunub ki, bəstəkarın musiqisində lirik əhval-ruhiyyə özünü həmişə göstərir. Onun mahnılarında bu xüsusiyyəti daha aydın görmək olar. "Unut bu sevdanı", "Nə deyim", "Xatirələr", "Dedin məhəbbət hanı?", "Anlamadın məni" və başqa çoxsaylı mahnılarında lirik əhval-ruhiyyə güclüdür. Bəstəkarın Vətənimizin gözəllikləri və şəhidlərin xatirəsinə həsr olunmuş əsərləri, romans və marşları onun yaradıcılığının əlvanlığını göstərir.

Bildirilib ki, bəstəkar çoxsaylı səhnə əsərlərinə də musiqi bəstələyib. Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Dövlət Kukla Teatrı, xalq teatrlarının tamaşalarına yazdığı musiqilər onun bu sahədə də məhsuldar işlədiyini göstərir. "Koroğlunun Çənlibelə qayıdışı", "Araz sahilində doğan Günəş", "Mirzə Fətəli", "İblis", "Hökmdar və qızı", "Sizi deyib gəlmişəm", "Hacı Qara", "Ezop", "Bəxtsiz cavan", "Manqurt", "Yollara iz düşür", "Cik-cik xanım", "Tənbəl Əhməd" və başqa tamaşalara yazılmış musiqilər Şəmsəddin Qasımovun bu sahədə istedadının göstəricisidir.

Tədbirdə bəstəkarın mahnıları səsləndirilib.

Sonda çıxış edən bəstəkar Şəmsəddin Qasımov muxtar respublikamızda mədəniyyətə və incəsənətə göstərilən dövlət qayğısından danışıb, yubileyinin qeyd edilməsi, ona göstərilən diqqət və qayğı üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını ifadə edib, bundan sonra da musiqi mədəniyyətimizin inkişafı üçün çalışacağını bildirib.

**Əli RZAYEV**

## 132-ci teatr mövsümü başa çatıb

*Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı İftixar Piriyevin "Qurtuluş dastanı" epik tarixi dramı əsasında hazırlanmış ikihissəli tamaşa ilə 132-ci teatr mövsümünü başa çatdırıb.*



Tamaşadan əvvəl Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev çıxış edərək Naxçıvan teatrının keçdiyi şərəfli inkişaf yolundan danışıb, bu sənət ocağının tamaşaçıların maarifləndirilməsindəki xidmətlərindən, onların estetik zövqünün formalaşmasında, işıqlı və mütərəqqi ideyaların yayılmasında gördüyü işlərdən söhbət açıb. Qeyd olunub ki, ötən mövsümdə hazırlanmış "Yəhya bəy Dilqəm", "Qurtuluş dastanı", "Nadanlıq" və başqa tamaşalar ictimaiyyət tərəfindən maraqla qarşılanan səhnə əsərləridir. Teatr Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu ilə birlikdə muxtar respublikanın müxtəlif rayonlarında dövlətçilik, vətənpərvərlik mövzusunda qələmə alınmış "Koroğlunun Çənlibelə qayıdışı", "Araz sahilində doğan Günəş", "Qurtuluş dastanı" kimi tamaşaları gənclər qarşısında nümayişini təşkil edib. Bu tamaşalarda dövlətçilik ideyaları, Vətənin müstəqilliyə qovuşması əksini tapdığı üçün gənclər tərəfindən maraqla qarşılanıb.

Xalq artisti teatrlara və sənət adamlarına diqqət və qayğıdan da söhbət açıb. Bildirib ki, Naxçıvan Dövlət Musiqili Dram Teatrının binasının son illər yenidənqurmadan sonra istifadəyə verilməsi muxtar respublikanın mədəni həyatında əlamətdar hadisə olmaqla, həm də sənət ocağına diqqət və qayğının ifadəsidir. Muxtar respublikada teatr kollektivlərinə, sənət adamlarına dövlətimiz tərəfindən daim diqqət və qayğı göstərilir, səmərəli fəaliyyətlərinə görə yaradıcı insanlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, orden və medallara, Prezident təqaüdü və mükafatlarına layiq görülür, onların yubileyləri yüksək səviyyədə qeyd olunur. Xalq artisti sonda bildirib ki, Naxçıvanda fəaliyyət göstərən teatrlarımız bundan sonra da dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə xidmət edən səhnə əsərlərini hazırlamaqla milli dəyərlərin qorunması və gələcək nəsillərə aşılanması sahəsində şərəfli vəzifəni layiqincə yerinə yetirəcəklər.

Sonra İftixar Piriyevin "Qurtuluş dastanı" ikihissəli epik tarixi dramı əsasında hazırlanmış tamaşa göstərilib. Tamaşada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyətinin Moskva, Naxçıvan və Bakı dövrlərinin müxtəlif məqamları səhnə həllini tapıb. Dahi şəxsiyyətin zəngin həyat yolunun müxtəlif məqamlarını əks etdirən tamaşada habelə ulu öndərin ayrı-ayrı hadisələrə münasibəti də yer alıb.

"Qurtuluş dastanı" tamaşasında Xalq artistləri Rza Xudiyev, Rövşən Hüseynov, Həsən Ağasoy, Şirzad Abutalıbov, Əməkdar artistlər Əli Əliyev, Əbülfəz İmanov, Xəlil Hüseynov, aktyorlar Elnur Rzayev, Şölə Novruzbəyli və başqalarının ifaları maraqla qarşılanıb.

## İməciliklər davam etdirilir



***Müxtəlif təbii amillər, xüsusən də ekoloji problemlər müasir dövrdə yaşıllıqların əhəmiyyətini daha da artırıb. Çünki ətraf mühitin qorunması və əlverişli ekoloji mühitin yaradılması insan sağlamlığına xidmət edir. Son illər muxtar respublikada keçirilən iməciliklər bu qədim diyarda təbiətin zənginləşdirilməsinə səbəb olub, yaşıllıqların və meyvə bağlarının sahəsi ilbəil artıb.***

İyunun 27-də keçirilən növbəti iməciliklərdə əvvəlki dövrlərdə salınmış yaşıllıq zolaqlarına aqrotexniki qulluq göstərilib. Belə ki, Naxçıvan şəhər sakinləri Uzunoba Su Anbarının yaxınlığındakı, müəssisə və təşkilatların ərazilərindəki yaşıllıq sahələrinə aqrotexniki qulluq göstəriblər.

Şərur rayonunun Gümüşlü və Dizə kəndlərindəki yaşıllıq sahələrində bu tədbirlər davam etdirilib, təmizlik və suvarma işləri aparılıb.

Babəklilər rayonun Vayxır və Xal-xal kəndləri arasındakı yaşıllıqlarda, müəssisə və təşkilatların ərazilərində ağaclara aqrotexniki qulluq göstərərək suvarıblar.

Ordubad rayonunda keçirilən iməciliklərdə Naxçıvan-Ordubad magistral yolunun Aza kəndindən Ordubad şəhərinə qədər olan hissəsində və rayon Mərkəzi Xəstəxanasının həyətindəki yaşıllıqlarda təmizlik və suvarma tədbirləri həyata keçirilib.

Culfa rayonunun sakinləri tərəfindən isə müəssisə və təşkilatların ərazilərində ağaclara aqrotexniki qulluq göstərilib.

Kəngərli rayonunda isə Naxçıvan-Sədərək magistral yolunun Qabıllı kəndi hissəsində və rayon İcra Hakimiyyəti binasının arxasındakı yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

Şahbuz rayonunda da müəssisə və təşkilatların ərazilərindəki ağacların dibi alaq otlarından təmizlənib, sonra suvarılıb.

Sədərəklilər isə Naxçıvan-Sədərək magistral yolunun sağ və sol hissələrində, Sədərək kənd 1 nömrəli tam orta məktəbin, eləcə də Qaraağac kəndində yol kənarlarındakı yaşıllıqlara aqrotexniki qulluq göstəriblər.

Həmin gün muxtar respublikanın müxtəlif yaşayış məntəqələrində yaşayan ahıl vətəndaşların həyətlərində təmizlik işləri aparılıb.

## Orta ixtisas təhsili müəssisələrinə və V ixtisas qrupu üzrə ali məktəblərə qəbul imtahanı iyulun 2-də keçiriləcək

İyul ayının 2-də Naxçıvan şəhərində əvvəlki il məzunları üçün ümumi və orta təhsil bazasından Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə və V ixtisas qrupu üzrə ali məktəblərə qəbul imtahanları keçiriləcək. İmtahanlara 205 nəzarətçi-müəllim, 17 imtahan rəhbəri cəlb ediləcək. İmtahanda iştirak etmək üçün bu günə qədər 2000-dən çox abituriyent qeydiyyatdan keçib. Bu barədə məlumat qəzetimizə TQDK-nın Naxçıvan Muxtar Respublikası Regional Bölməsindən daxil olub.

Regional bölmədən o da bildirilib ki, imtahanlar Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə, Naxçıvan şəhər 1, 7 və 14 nömrəli tam orta məktəblərdə keçiriləcək. Bütün məktəblərdə imtahanlar saat $10^{00}$-da başlayacaq. V ixtisas qrupuna xüsusi qabiliyyət tələb edən ixtisaslar daxildir. V ixtisas qrupu üzrə müsabiqədə iştirak etmək üçün tam orta (11 illik) təhsil səviyyəsini əvvəlki illərdə və ya xarici ölkələrdə bitirən abituriyentlər buraxılış imtahanı keçirilən qaydada qəbul imtahanı verəcəklər və müsabiqədə bu imtahandan əldə etdikləri nəticələrə əsasən iştirak edəcəklər.

**Xəbərlər şöbəsi**

Yeni nəşrlər

## Nağdsız ödənişlərlə bağlı ilk jurnal işıq üzü görmüşdür




***Ölkəmizdə informasiya cəmiyyətinin qurulması ilə bağlı həyata keçirilən məqsədyönlü tədbirlər arasında iqtisadiyyatda elektron ödənişlərin həcminin genişləndirilməsi, maliyyə intizamının möhkəmləndirilməsi və şəffaflığın artırılması kimi məsələlər də mühüm yer tutur. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən hazırlanmış "Nağdsız ödənişlər: mövcud vəziyyət, inkişaf perspektivləri" adlı jurnalda muxtar respublikamızda bu sahədə görülmüş işlər və qarşıda duran vəzifələr barəsində geniş məlumatlar verilmişdir.***

Jurnalda 2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı"nın icrası istiqamətində görülən işlər ətraflı təhlil edilmişdir.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədovun ön söz yazdığı jurnalda son illərdə Naxçıvan Muxtar Respublikasında bank infrastrukturunun yaradılması istiqamətində görülmüş işlərdən, əhaliyə təklif olunan bank xidmətlərindən, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün elektron ödəniş sistemlərinin mahiyyətindən geniş bəhs olunmuşdur. Jurnalda dərc edilmiş materiallarda muxtar respublikamızda iqtisadi subyektlərin və geniş əhali təbəqəsinin yaradılmış infrastruktur imkanlarından daha aktiv istifadəyə cəlb edilməsi, müasir elektron ödəniş alətlərindən və bank texnologiyalarından istifadənin genişləndirilməsi, əhalinin müxtəlif təbəqələri arasında müasir elektron ödənişlər üzrə vərdişlərin formalaşdırılması qarşıya qoyulmuş əsas məqsəd kimi qeyd olunmuşdur.

Jurnalda elektron ödənişlərin mahiyyəti, onların iqtisadi inkişafda, vətəndaşların rahatlığında, bir mədəniyyət norması kimi cəmiyyətin inkişafındakı rolu, maliyyə təhlükəsizliyinin təmini və digər aktual məsələlər haqqında iqtisad üzrə fəlsəfə doktorları Mehdi Bağırovun və Əli Cabbarovun, Leyla Yusifzadə və Aytən Məmmədova, Rəşad Əliyev, Həsən İsmayılov, Elçin Əliyev və Tural Şirəlizadənin məqalələrinə yer verilmişdir. Nəşrdə həmçinin 2014-2015-ci illərdə Naxçıvan şəhəri və habelə Şərur, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli, Sədərək rayonları üzrə nağdsız ödəniş göstəriciləri haqqında statistik məlumatlar verilmiş, 2014-cü ilin yanvar və 2015-ci ilin aprel ayları üzrə POS-terminalların sayının və nağdsız ödənişlərin həcminin dinamikası qrafik təsvirlə təqdim olunmuşdur. Jurnal bank işinin təhlili ilə məşğul olan iqtisadçılar üçün çox faydalıdır. Qeyd edək ki, jurnalın elektron versiyası ilə ***www.cbar-nar.az*** internet səhifəsində tanış olmaq olar.

**Əli CABBAROV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 506